**“2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” çərçivəsində beynəlxalq ikili diplom proqramları ilə bağlı mütəmadi verilən suallar**

1. **2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı çərçivəsində neçə ikili diplom proqramının təsis edilməsi gözlənilir?**

- Proqramı çərçivəsində ilkin mərhələdə 5 beynəlxalq ikili diplom proqramının təsis edilməsi planlaşdırılır.

2. **Beynəlxalq ikili diplom proqramları hansı ixtisaslar üzrə həyata keçiriləcək?**

- Beynəlxalq ikili diplom proqramlarının Azərbaycan Respublikasının inkişaf prioritetlərinə uyğun sahələr (kənd təsərrüfatı, tibb, təhsil, informasiya texnologiyaları, mühəndislik və digər) üzrə həyata keçirilməsi planlaşdırılır.

3. **Dövlət Proqramı çərçivəsində beynəlxalq ikili diplom proqramlarının təhsilin hansı səviyyələri üzrə təsis olunması planlaşdırılır?**

- 2019-2023 Dövlət Proqramı çərçivəsində ilkin olaraq təhsilin iki səviyyəsində (bakalavriat və magistratura) beynəlxalq ikili diplom proqramlarının təsis olunması planlaşdırılır.

4. **Beynəlxalq ikili diplom proqramları çərçivəsində hansı xərclər maliyyələşdirilir?**

- Beynəlxalq iikili diplom proqramının həyata keçirilməsinin maliyyələşdirilməsi üzrə xərclər aşağıdakı istiqamətlərə bölünür:
    - Layihələndirmə xərcləri
    - Rəhbər komitənin xərcləri
    - Yerli professor-müəllim və inzibati heyətin xərcləri
    - Əcnəbi professor-müəllim və inzibati heyətin xərcləri
    - Təhsilalanların xərcləri
    - Akkreditasiya xərcləri

    Ətraflı keçiddə verilir.

5. **İkili diplom proqramı çərçivəsində yerli professor-müəllim və inzibati heyətin hansı xərcləri qarşılanır?**

- Beynəlxalq ikili diplom proqraml çərçivəsində yerli professor-müəllim və inzibati heyətin əmək haqqı, səfər sığortası xərcləri, viza xərcləri, ezamiyyə xərcləri və təlim xərcləri qarşılanır.

6. **Beynəlxalq ikili diplom proqramı çərçivəsində əcnəbi professor-müəllim və inzibati heyətin hansı xərcləri qarşılanır?**

- Beynəlxalq ikili diplom proqramı çərçivəsində əcnəbi professor-müəllim və inzibati heyətin viza və qeydiyyat xərcləri, ölkədə əmək fəaliyyəti ilə məşğul

olması üçün müvafiq icazə xərcləri, ölkədə yaşayış xərcləri, əmək (xidmət) haqqı, tibbi sığorta xərcləri və beynəlxalq nəqliyyat xərcləri qarşılanır.

**7. Beynəlxalq ikili diplom proqramlarında təhsil alan tələbələrin hansı xərcləri proqram tərəfindən qarşılanır?**

- Beynəlxalq ikili diplom proqramlarında təhsil alan tələbələrin təhsil haqqı, qeydiyyat xərci, tədris materialları və elektron informasiya resurslarına çıxış xərcləri, eləcə də xaricdə təhsil, yay məktəbində və istehsalat təcrübəsində iştirak xərcləri proqram tərəfindən qarşılanır.

**8. Beynəlxalq ikili diplom proqramı çərçivəsində Azərbaycana gələn əcnəbi professor-müəllim və inzibati heyətin mehmanxana xərcləri qarşılanırmı?**

- Bəli. Mehmanxana xərcləri 15 günədək olan müddətə ödənilir.

**9. Səfər sığortası dedikdə nə nəzərdə tutulur?**

- Səfər sığortasına səfər müddətində baş verən qəfil xəstəlik və ya bədbəxt hadisə zamanı tibbi yardımın göstərilməsi və tibbi xərclərin ödənilməsi ilə bağlı xərclər aiddir.

**10. Əcnəbi professor-müəllim və inzibati heyətin beynəlxalq nəqliyyat xərcləri hansı formada ödənilir?**

- Beynəlxalq nəqliyyat xərclərinə rəhbər komitənin, yerli professor-müəllim və inzibati heyət və əcnəbi professor-müəllim və inzibati heyətində təmsil olunan şəxslərin tədris müddəti və ezamiyyə ərzində fəaliyyət göstərəcəyi yerə gəlişi və öz ölkəsinə gedişi üçün tələb edilən vəsait aiddir və həmin vəsait onun təqdim etdiyi bilet (biletin alınmasını təsdiq edən bank sənədi və onun istifadəsini təsdiq edən minik talonları, həmçinin pasportun surəti ilə birlikdə) və ya müvafiq nəqliyyat şirkətlərinin təqdim etdiyi ödəniş sənədləri (hesab-faktura, mədaxil qəbzi) əsasında müəyyən edilir.

**11. Beynəlxalq nəqliyyat xərclərinin ödənilməsi üçün biletin maksimum qiyməti müəyyən olunubmu?**

- Belə bir qiymət müəyyən olunmayıb, lakin Dövlət Proqramı çərçivəsində yerli və əcnəbi professor-müəllim və inzibati heyətin tədris müddəti ərzində fəaliyyət göstərəcəyi yerə gəlişi və öz ölkəsinə gedişi yalnız “ekonom sinif” biletlərinin dəyəri səviyyəsində ödənilir.

**12. Əgər tələbə beynəlxalq ikili diplom proqramı çərçivəsində təhsilinin bir hissəsini xarici ölkədə keçirirsə və ya xaricdə yay məktəbində iştirak edirsə, bu halda ona hansı məbləğdə vəsait ödənilir?**

- Bu halda tələbənin xərcləri Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 27 noyabr tarixli 261 nömrəli Qərarı ilə təsdiq edilmiş “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”na əsasən Azərbaycan gənclərinin xarici ölkələrin ali məktəblərində təhsil haqlarının ödənilməsi Qaydaları” na uyğun olaraq ödənilir.

**13. Beynəlxalq ikili diplom proqramları yaradılarkən tərəfdaş universitetlər hansı meyarlar əsasında seçilir?**

- Xarici tərəfdaş ali təhsil müəssisələrinin seçimi ilə bağlı məlumatlar keçiddə verilir.

**14. Beynəlxalq ikili diplom proqramının ümumilikdə neçə faizi Azərbaycanda həyata keçirilməlidir?**

- ən azı 70 (yetmiş) faizi hissəsində təhsilin yerli ali təhsil müəssisəsində həyata keçirilməsi şərtilə beynəlxalq ikili diplom proqramının yerinə yetirilməsi müddəti müəyyən edilib.
-

**15. Beynəlxalq ikili diplom proqramının maliyyələşməsinə başlamaq üçün nə etmək lazımdır?**

- Əgər müvafiq ikili diplom proqramının Dövlət Proqramı çərçivəsində maliyyələşdirilməsi ilə bağlı Təhsil Nazirliyinin müvafiq əmri verilibsə, ali təhsil müəssisələri imzalanmış ikitərəfli müqavilələr və digər sənədlər əsasında ikili diplom proqramı üzrə illik xərclər smetasını və onun əsaslandırılmasını tərtib edib, baxılması üçün rəhbər komitəyə (ikili diplom proqramının yaradıldığı universitetdə qurulur) təqdim etməli, rəhbər komitə xərclər smetasını təhlil edərək, onu öz qərarı ilə təsdiq edərək İdarəetmə Qrupuna təqdim etməlidir.

**16. İdarəetmə Qrupu müvafiq vəsaiti Dövlət Proqramını maliyyələşdirən qurumdan əldə etdikdən sonra onu neçə gün ərzində ali təhsil müəssisəsinin hesabına köçürür?**

- İdarəetmə Qrupu beynəlxalq ikili diplom proqramını həyata keçirən ali təhsil müəssisələrinin aylıq sifarişləri əsasında cari maliyyələşdirmənin həyata keçirilməsi üçün müvafiq vəsaiti 7 (yeddi) iş günündən gec olmayaraq ali təhsil müəssisəsinin bank hesabına köçürür;

**17. Beynəlxalq ikili diplom proqramının icrasına dair monitorinq keçiriləcəkmi?**

- Hər tədris ili üçün İdarəetmə Qrupu tərəfindən beynəlxalq ikili diplom proqramının icrasına dair monitorinq keçirilir və proqramın maliyyələşdirilməsinin məqsədəuyğunluğu dəyərləndirilir.

**18. Beynəlxalq ikili diplom proqramında təhsil alacaq tələbə seçimi necə aparılır?**

- Beynəlxalq ikili diplom proqramları üzrə təhsil alacaq tələbələrin seçimini Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi (bundan sonra – DİM) tərəfindən ali təhsil müəssisələrinə keçirilən qəbul imtahanlarının nəticələri əsasında tərəflər aparırlar.

**19. Beynəlxalq ikili diplom proqramlarında təhsil almaq üçün DİM-in imtahanında nə qədər bal yığmalıyam?**

- Proqramda iştirak üçün DİM tərəfindən hər il müəyyən olunan minimum keçid balını keçmək lazımdır. Hər ikili diplom proqramının həyata keçirildiyi ali təhsil

müəssisəsi tərəfindən verilmiş elan mətnində bu haqda konkret məqamlar öz əksini tapır. Keçiddə müvafiq proqramlar barədə məlumat verilir.

**20. Mən bakalavr təhsilimi ingiliscə almışam. Beynəlxalq ikili diplom proqramlarında təhsil almaq üçün IELTS/TOEFL sertifikatı təqdim etmək mənimçün vacibdirmi?**

- Hər ikili diplom proqramının həyata keçirildiyi ali təhsil müəssisəsi tərəfindən verilmiş elan mətnində bu haqda konkret məqamlar öz əksini tapır. Keçiddə müvafiq proqramlar barədə məlumat verilir.

**21. Beynəlxalq ikili diplom proqramı üzrə müsahibə mərhələsinə keçsəm, məni kim müsahibə edəcək?**

- Müsahibə mərhələsi tərəfdaş xarici ali təhsil müəssisəsinin professor-müəllim heyəti tərəfindən həyata keçirilir.

**22. Beynəlxalq ikili diplom proqramının müsahibə mərhələsi hansı ölkədə keçiriləcək?**

- Müsahibə Azərbaycanda keçirilir. Şəraitdən asılı olaraq Azərbaycanda bu müsahibə ya xarici ali təhsil müəssisəsinin professor-müəllim heyəti ilə üzbəüz, ya da videokonfrans şəklində aparılır.

**23. İkili diplom proqramı üzrə təhsil alarkən təhsilim Azərbaycanda olacaq yoxsa xarici ölkədə?**

- Bu təhsil aldığınız proqram üzrə dəyişir. Keçiddə müvafiq proqramlar barədə məlumat verilir.

**24. Magistratura səviyyəsində beynəlxalq ikili diplom proqramına müraciət edərkən DİM imtahanından topladığım balla ikili diplomla eyni ildə digər ali təhsil müəssisələrinə də müraciət edə bilərəmmi?**

- İkili diploma seçilməyiniz haqqında məlumat DİM-in ixtisas seçimi başlanmazdan qabaq verilir. İkili diplom proqramına seçildiyiniz təqdirdə digər ixtisasları seçim haqqınız ləğv olunur. Seçilmədiyiniz təqdirdə, həmin balla yeni ixtisas seçə bilərsiniz.

**25. DİM imtahanından topladığım bal aşağı olduqda ikili diplom üzrə təhsil haqqı ödəməliyəmmi?**

- Xeyr, ikili diplom proqramı üzrə seçildiyiz təqdirdə təhsil haqqınız tam şəkildə Dövlət Proqramı tərəfindən qarşılanır.

**26. Beynəlxalq ikili diplom proqramı üzrə təhsil aldığım müddətdə tələbələr üçün müəyyən olunmuş aylıq dövlət təqaüdünü (stipendiya) alacağammı?**

- Bəli.